UOT 94; UOT 94(479.24)

AYTAC ŞADİYEVA
Bakı Dövlət Universiteti
Asiya və Afrika ölkələri tarixi kafedrasının doktorantı
shinetomydarkness@gmail.com

"ƏSRİN MÜQAVİLƏSİ" VƏ YAPONİYA

DOI: https://doi.org/10.36719/2708-065X/104/151-155

Azərbaycanın XX əsr iqtisadiyyatında neft sənayesi ən önəmli yerlərdən birini tutur. Ölkəmiz 1991-ci ildə öz müstəqilliyini qazandıqdan sonra neft sənayesi vətənimizin maraqlarına xidmət etməyə başladı. Müstəqil Azərbaycanın neft sənayesində ən önəmli müttəfiqlərindən biri məhz Yaponiyadır. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan iqtisadiyyatı, o cümlədən neft sənayesi yüksəlişə başlayır. Ulu Öndər Heydər Əliyevin əməyi sayəsində Yaponiya Azərbaycan neft sənayesinin və "Əsrin müqaviləsi"nin ən önəmli payçısına çevrildi. Azərbaycanın zəngin neft ehtiyatları, uğurlu siyasəti Yaponiya ilə iqtisadi əlaqələrimizin inkişafında yeni mərhələ açmışdır. Məqalədə XX əsrin sonunda Azərbaycanla imzalanmış və neft sahəsində əməkdaşlığı özündə ehtiva edən "Əsrin müqaviləsi" və onun davamı kimi XXI əsrin əvvəllərində imzalanmış "Yeni əsrin müqaviləsi" və bu layihələrdə Yaponiyanın fəal rolundan bəhs ediləcək.

Açar sözlər: Azərbaycan, "Əsrin müqaviləsi", Yaponiya, Heydər Əliyev, neft, SOCAR.

Giriş. Azərbaycan əsrlər boyu öz zəngin təbii sərvətləri ilə bütün dünyanın diqqət mərkəzində olmuşdur.Bu zənginliklər içərisində neft xüsusi yer tutur. Əsrlər boyu neft Azərbaycanın iqtisadi, hərbi və sosial həyatında mühüm rol oynamışdır. II Dünya müharibəsi illərində Azərbaycan, xüsusilə Bakı nefti sayəsində SSRİ faşist Almaniyası üzərində qələbə qazana bilmişdir. 1991-ci ildə müstəqillik qazandıqdan sonra ölkəmiz öz sərvətlərinin, o cümlədən neftinin həqiqi sahibinə çevrilmişdir. Əgər müasir Azərbaycan sənayesini bir orqanizmə bənzətsək, nefti onun onurğa sütunu adlandırmaq olar.

Azərbaycanın, onun iqtisadiyyatının, o cümlədən də neft sənayesinin yenidən dirçəlməsi Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 1991-1993-cü illərdə Azərbaycan müstəqil olsa da, öz sənayesini lazımi səviyyədə bərpa edə bilməmiş, xarici siyasətdə bir sıra problemlər yaşamışdır. 1993-cü il 3 oktyabr tarixində Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycanın Prezidenti seçildikdən sonra bütün sahələrdə dirçəliş özünü göstərmiş və Azərbaycan iqtisadiyyatı böyük sürətlə inkişaf etməyə başlamışdır. Müstəqil Azərbaycan dünya ölkələri, o cümlədən Şərqi Asiya ölkələri olan Çin, Yaponiya və Koreya Respublikası ilə siyasi, iqtisadi və mədəni əlaqələrini genişləndirmişdir. Azərbaycanın zəngin neft və qaz yataqları bu ölkələrin diqqətini özünə cəlb etmişdir.

Müasir Azərbaycan neft strategiyasının əsasında "Əsrin müqaviləsi" dayanır. SOCAR-ın birinci vitse-prezidenti olmuş, akademik Xoşbəxt Yusifzadə "Əsrin müqaviləsi" haqqında qeyd edirdi: "Müqavilə üçün 1994-cü ilin martında Bakıda başlanan danışıqlar sonra Türkiyənin İstanbul şəhərində davam etdirildi. Danışıqların həlledici mərhələsi isə Amerikanın Hyuston şəhərində baş tutdu. Hyustonda 45 gün ərzində aparılan danışıqlar çox gərgin keçdi. O vaxt müstəqillik yoluna təzəcə qədəm qoymuş Azərbaycanda neftçi mütəxəssislərin xarici şirkətlərlə danışıqlarda kifayət qədər təcrübəsi yox idi. Aparılan danışıqların uğurla başa çatmasında o zaman SOCAR-ın birinci vitse-prezidenti vəzifəsində çalışan İlham Əliyevin xüsusi rolu olmuşdur" (15). Uzun sürən danışıqlardan sonra 1994-cü il sentyabrın 20-də Bakının "Gülüstan" sarayında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə dünyanın 8 ölkəsindən tanınmış 13 neft şirkəti ilə Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq", "Günəşli" neft yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş imzalandı və 12 dekabr 1994-cü ildə qüvvəyə mindi (7, c.256). Bu saziş tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlandırılmışdır (16). Saziş 30 illik müddətə nəzərdə tutulmuşdur (1, s.167).

"Əsrin müqaviləsi"ni imzalayan ölkələr içərisində (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) Şərqi Asiya nəhəngi olan Yaponiya da vardır. Yaponiyanın "İtoçu" neft şirkəti bu müqavilədə iştirak etmişdir (16). "Əsrin müqaviləsi"nə qoşulduğu ilk zamanlarda Yaponiyanın "İtoçu" neft şirkətinin payı 3,920 faiz təşkil etmişdir (4, s.57).

Müasir dövrdə dünya neft-qaz bazarı istehlakçılarının strukturunda da dəyişikliklər baş vermişdir. Əvvəllər 3 yüksək inkişaf etmiş region neft və qazın əsas istehlakçılarından hesab olunurdu (ABŞ, Avropa ittifaqı, Şimal-Şərqi Asiya, xüsusilə Yaponiya, Cənubi Koreya, Tayvan). Hazırda Çin, hətta Yaponiyanı belə bu sahədə qabaqlayaraq, dünya neft istehlakında 9 %-lik göstəriciyə malikdir və yalnız ABŞ-dan geri qalır.

1996-cı ildə "Əsrin müqaviləsi" üzrə dördüncü saziş imzalandı. Mühüm cəhət ondan ibarət idi ki, Yaponiya şirkəti ilk dəfə müqavilədə təsisçi kimi iştirak edirdi (8, c.360). Elə həmin ildə Yaponiyanın "İtoçu" neft şirkəti Amerikanın "Pennzoyl" neft şirkəti ilə razılığa gələrək, "Əsrin müqaviləsi"ndə olan 5 %-lik payını "İtoçu" neft şirkətinə satmışdır (11, s.229). "Əsrin müqaviləsi"nə iki il sonra kiçik payla qoşulmuş "İtoçu" dördüncü neft müqaviləsində ilk gündən daha böyük- 20 %-lik payla iştirak edirdi (5, s.67). Dünyanın siyasi və iqtisadi güc mərkəzləri ilə əməkdaşlığın qurulması və inkişafı xəttini yeridən Azərbaycan hökuməti bu dairəni genişləndirərək, Yaponiya ilə münasibətlərin möhkəmləndirilməsi üçün zəmin yaradırdı. Hazırda Yaponiyadan "İtoçu" şirkəti ilə yanaşı, "İnpeks" neft şirkəti də "Əsrin müqaviləsi"nin iştirakçılarındandır (14). Belə ki, 2002-ci ildə konsorsiumda təmsil olunan Rusiyanın "Lukoyl" neft şirkəti müqavilədəki 10 %-lik payını Yaponiyanın "İnpeks" neft şirkətinə 1,375 milyard ABŞ dollarına satmışdır (14).

1998-ci il dekabrın 25-də "Əsrin müqaviləsi" üzrə əməkdaşlığın davamı məqsədilə Xəzər dənizinin Azərbaycan sektorunda 3 dəniz perspektivinin işlənməsi üçün SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) ilə 4 Yaponiya neft şirkəti arasında müqavilə bağlandı. Konsorsiuma *Japan Petroleum Exploration Corporation* (JAPEX), *Teikoku Oil Company*, *İndonesia Petroleum* (İNPEX) və *İtoçu Corporation* şirkətləri daxil idi. Bu müqavilə ümumilikdə sahəsi 510 km^2 olan və özündə 75-90 milyon ton həcmində hesablanmış neft ehtiyatlarını birləşdirən Yanan Tava, Atəşgah və Muğan Dəniz yataqlarının istismarı üçün imzalanmışdır (4, s.115). 2,3 milyon dollar dəyərində kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü haqqında olan bu sazişlə ilk dəfədir ki, yapon neft hasilatçıları Xəzər dənizində neft konsorsiumundan kənarda neft kəşfiyyatı aparıblar. Yaponiyanın Mitsui şirkəti isə Xəzər dənizində Kürdaşı layihəsinin üzvüdür. Bu müqavilə "Əsrin müqaviləsi" çərçivəsində Yaponiya neft şirkətləri ilə bağlanan 16-cı müqavilədir. Bu müqavilələrdən 13-ü dəniz layihələri üçündür və təkcə 7-si isə 1998-ci ildə imzalanmışdır (12). Bu fakt özü özlüyündə Azərbaycanın neft ehtiyatlarının Şərqi Asiya ölkələri, xüsusən də Yaponiya üçün nə dərəcədə dəyərli olduğunu, Azərbaycanın Yaponiyanın neft sahəsində strateji tərəfdaşı olduğunu sübut edir. Əvvəlki bütün müqavilələrin çoxu Qərbin beynəlxalq neft şirkətləri ilə bağlandığından Ümummilli lider Heydər Əliyev qeyd etmişdir ki, bu hadisə Azərbaycanın neft tarixində yeni bir səhifə açdı və Azərbaycan-Yaponiya iqtisadi əməkdaşlığının genişləndirilməsində xüsusi rol oynayacaq. Yaponiya hökuməti adından çıxış edən Yaponiyanın Azərbaycan və Rusiyadakı səfiri Takihiro Toqo Yaponiyanın Azərbaycan-Yaponiya iqtisadi əlaqələrinin genişləndirilməsinə xüsusi önəm verdiyini və Azərbaycanı mühüm iqtisadi müttəfiq hesab etdiyini bildirib. O, öz çıxışında Azərbaycan və Yaponiya arasında qədim Böyük İpək Yolu üzrə tarixi əlaqələrə diqqət çəkmişdir. Bu müqaviləni aşağıdakı şirkət nümayəndələri imzalamışlar: SOCAR-ın prezidenti Natiq Əliyev, JAPEX-in prezidenti Kazuko Vakasuki, İNPEX-in baş icraçı direktoru Minoro Naqata, İTOÇU-nun prezidenti Harumiçi Uneda, Teikokunun baş icraçı direktoru Toşido Şimada. JAPEX şirkəti əməliyyatlar aparır. İmzalanma mərasimində dövlət rəsmiləri, Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərin rəhbərləri, diplomatik missiyaların rəhbərləri və azərbaycanlı deputatlar iştirak ediblər (12).

Bununla yanaşı, Yaponiya biznesinin liderləri - Mitsui, Mitsubişi, Marubeni və Sojits şirkətləri də Azərbaycanda enerji və infrastruktur layihələrində iştirak etməkdədirlər. Mitsui şirkəti neft sahəsi ilə yanaşı, alternativ enerji sahəsində də əməkdaşlığı inkişaf etdirmək niyyətindədir (12).

"Əsrin müqaviləsi" əsasında sonradan 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 saziş imzalanmışdır. 1997-ci ildə Bakı-Novorossiysk neft kəməri yenidən qurulub istifadəyə verildi (10, c.55). Müqavilədə iştirak edən ABŞ-ın "Mak Dermont" şirkəti yataqların istismarındakı payının bir

hissəsini 1996-cı ilin mart ayında Yaponiyanın "İtoçu Korporeyşn" şirkətinə satmışdır (2, s.134). 2011-ci ildə baş verən sonuncu dəyişikliklərdən sonra Əsrin müqaviləsində iştirak edən Yaponiya şirkətlərinin də aşağıdakı kimi formalaşmışdır: "İnpeks"-10,96 %, "İtoçu"-4,3 % (5, s.47). Hazırda Yaponiyadan əlavə Çin və Koreya Respublikası da Azərbaycanın neft strategiyası üzrə müttəfiqlərindəndir. 2007-ci ilin avqustunda Cənubi Koreyanın neft şirkəti də "Əsrin müqaviləsi"ndə iştirak etməyə başlamışdır (16).

2017-ci il fevralın 22-də SOCAR-la Yaponiyanın İtoçu neft şirkəti arasında neft sahəsində elmi-texniki əməkdaşlığa dair memorandum imzalandı. Memorandum Azərbaycan-Yaponiya İqtisadi Əməkdaşlıq Komitəsinin IX iclasında iştirak etmək üçün Bakıya gəlmiş Yaponiya nümayəndə heyəti ilə görüş zamanı imzalanmışdı (9, c.152). SOCAR-ın strateji inkişaf üzrə vitse-prezidenti Yaşar Lətifov Yaponiya şirkətlərinin Azərbaycanın neft-qaz sektorunda ən etibarlı tərəfdaşlarından biri olduğunu vurğulayıb. Yaşar Lətifov qeyd etmişdir ki, İtoçu neft şirkəti 1996-cı ildə "Əsrin müqaviləsi"nə fəal surətdə qoşulub və artıq 20 ildir ki, SOCAR-la uğurla əməkdaşlıq edir. Yaponiya nümayəndə heyətinin rəhbəri, İtoçu şirkətinin sədr müavini Yoiçi Kobayaşi bildirib ki, Azərbaycanın əlverişli coğrafi mövqeyi ölkənin yeni enerji qovşağı kimi rolunu artırır. Kobayaşi bildirib ki, Yaponiya şirkətləri neft və qaz hasilatı, ticarət və digər sahələrdə əməkdaşlığı genişləndirməkdə maraqlıdırlar. İtoçu 1996-cı ildə bu sahədə 3,9205 % pay əldə edib və Azərbaycanda ofis yaradan ilk Yaponiya korporasiyası olub (13).

Azərbaycan tarixində ikinci belə "Əsrin müqaviləsi"ni Ümummilli lider Heydər Əliyevin siyasətini uğurla davam etdirən Cənab Prezident İlham Əliyev imzalamışdır. 2017-ci il sentyabrın 14-də Bakıda Prezident İlham Əliyevin iştirakı ilə Xəzər dənizinin Azərbaycan sektorunda AÇG yataqlar blokunun və "Günəşli" yatağının dərinliklərində yerləşən hissəsinin birgə işlənməsini nəzərdə tutan və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanma mərasimi keçirilib. Bu müqavilə prezident İlham Əliyev tərəfindən "Yeni əsrin müqaviləsi" adlandırılıb. Bu müqaviləni "SOCAR", "BP", "Chevron", "İnpex", "Equinor" (əvvəlki "Statoyl"), "Exxon Mobil", "TP", "İtochu" və "ONGC Videsh" şirkətləri tərəfindən imzalanıb (17). Yeni sazişdə Yaponiyanın "İnpex" şirkətinin payı 9,31 %, "İtochu" şirkətinin payı isə 3,65 % təşkil edir. Yeni saziş ilə AÇG neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadılıb (17). Yeni müqavilənin imzalanma mərasimində çıxış edən Yaponiyanın xarici işlər nazirinin parlamentari müavini Manabu Hori çıxışında bildirmişdir: "Son 25 il ərzində iki ölkə arasında əməkdaşlıq əhəmiyyətli şəkildə inkişaf edib. Yaponiyanın İNPEX və İTOCHU korporasiyaları "Azəri-Çıraq-Günəşli" neft yataqlarının işlənilməsində iştirak edib. Baş Nazir Şinzo Abe diplomatik əlaqələrin 25-ci ildönümü münasibətilə Prezident İlham Əliyevə məktub ünvanlayıb. İki ölkənin əməyi sayəsində İNPEX və özəl sektor tərəfindən təmin olunan təlim proqramları Azərbaycanda xeyli sayda istedadların inkişafına töhfə verib. Azərbaycanda iqtisadi infrastrukturun inkişafı və sosial xidmətlərin yaxşılaşdırılmasına ümumilikdə 1,1 milyard dollar vəsait yönəldilmişdir" (3, s.170). 2017-ci ildə Yaponiyanın Azərbaycandakı səfiri Teruyuki Katori Yaponiya-Azərbaycan diplomatik əlaqələrinin 25 ildönümü münasibətilə etdiyi çıxışında qeyd etmişdir ki, yapon şirkətləri "İtoçu" və "İNPEX" Azərbaycanın ən böyük neft yataqları olan Azəri-Çıraq-Günəşli yatağında ümumilikdə 15 faizlik iştirak payına malikdir (6, s.5).

Bu gün "Əsrin müqaviləsi"nin imzalanmasından 30 il ötür və Ümummilli Lider Heydər Əliyevin Fərmanı ilə müqavilənin imzalandığı tarix - 20 sentyabr Azərbaycanda hər il "Neftçilər Günü" kimi qeyd edilir. Hazırda Çin, Yaponiya və Koreya Respublikası başda olmaqla, dünyanın 33 ölkəsinə Azərbaycandan xam neft və neft məhsulları ixrac edilir. Bu layihələr "Böyük İpək Yolu"nun bərpasının bir parçasıdır.Hazırda Azərbaycanın Şərqi Asiya ölkələri ilə mədəni, siyasi, xüsusilə də iqtisadi əlaqələri böyük uğurla davam etməkdir.

Nəticə. Ümummilli lider Heydər Əliyevin şah əsəri olan "Əsrin müqaviləsi" müstəqil Azərbaycanın neft sənayesinin təməl daşıdır və Yaponiya bu müqavilədə iştirak etməkdə çox maraqlıdır. Bunun bariz nümunəsi kimi Prezident İlham Əliyevin dövründə imzalanmış "Yeni əsrin müqaviləsi" və digər neft sazişlərində Yaponiya fəal iştirak etməkdədir.

ƏDƏBİYYAT

1. Azərbaycanın neft salnaməsi. Bakı: “Elm və təhsil”, 2014, 234 s.
2. K.Əzizova.“Əsrin müqaviləsi” Heydər Əliyevin yeni neft strategiyasıdır / “Azərbaycanın neft müqavilələri:məzmunu və əhəmiyyəti” Respublika elmi konfransının materialları, Sumqayıt: 2014, 226 s.
3. İlham Şaban. Azəri-Çıraq Günəşli-25. Faktlar, sənədlər və rəqəmlər toplusu. Bakı:“JekoPrint” 2019, 192 s.
4. Azərbaycan iqtisadiyyatı 100 ildə. 1-ci kitab. Bakı:“İqtisadi Ensiklopediya Evi”, 2021, 672 s.
5. “Əsrin müqaviləsi” Azərbaycan neft strategiyasının təməl daşı. Bakı: “Turxan”, 2014, 248 s.
6. 25 ildə Yaponiya-Azərbaycan münasibətləri davamlı inkişaf edib / Mədəniyyət, 2017 8 sentyabr, s.5.
7. Ч.А.Султанов. “Нефть”. Том 1. Баку: “Нафта пресс”, 2000, 421 с.
8. М.Мир-бабаев. “Краткая история Азербайджанской нефти”. Баку: “Кавказ”, 2008, 562 с.
9. Н.Алиев. “Нефть и нефтяной фактор в экономике Азербайджана в XXI веке”. Баку: “Леттерпресс”, 2010, 244 с.
10. Н.Алиев, М.А.Мирзоев, Э.К.Шахбазов - “Оэт Баку-Тбилиси-Джейхан: от видения к реальности. Баку: “Европа”, 2001, 439 с.
11. S.Nuriyev. Oil and European policy. Bakı: “Mutarjim”, 2002, 403 p.
12. Yanan Tava, Atashgah and Mugan Daniz. - https://azer.com/aiweb/categories/magazine/64_folder/64_articles/64_socar_japex.html[Müraciət tarixi: 30.01.2024].
13. Azerbaijan’s SOCAR, Japan’s Itochu ink co-op MoU (PHOTO). - https://en.trend.az/business/energy/2724420.html [Müraciət tarixi: 30.01.2024].
14. “Əsrin müqaviləsi (Bakı, 20 sentyabr 1994-cü il) mövzusunda ümumi tarixi arayış”. - https://lib.aliyev-heritage.org/az/917277.html [Müraciət tarixi: 04.01.2024].
15. “Əsrin müqaviləsi” Azərbaycanın dövlət müstəqilliyinin xidmətində. - https://xalqqazeti.az/az/siyaset/139956-esrin-muqavilesi-azerbaycanin-dovlet-musteqilliyinin [Müraciət tarixi: 04.01.2024].
16. “Əsrin müqaviləsi” haqqında qısa tarixi arayış. - https://yeniazerbaycan.com/SonXeber_e54353_az.html [Müraciət tarixi: 04.01.2024].
17. “Əsrin müqaviləsi”nin bağlanmasından 26 il ötür. - https://qafqazinfo.az/news/detail/esrin-muqavilesinin-baglanmasindan-26-il-otur-298872 [Müraciət tarixi: 04.01.2024].

АЙТАДЖ ШАДИЕВА
Докторант кафедры истории стран Азии и Африки Бакинского государственного университета

“КОНТРАКТ ВЕКА” И ЯПОНИЯ

Нефтяная промышленность занимает одно из важнейших мест в экономике Азербайджана в 20 веке. После обретения нашей страной независимости в 1991 году нефтяная промышленность стала служить интересам нашей страны. Один из важнейших союзников в нефтяной отрасли независимого Азербайджана является Япония. Благодаря деятельности великого лидера Гейдара Алиева, Япония стала важнейшим акционером нефтяной промышленности Азербайджана и "Контракта века". Богатые нефтяные запасы Азербайджана и успешная политика, открыли новый этап в развитии наших экономических отношений с Японией. В статье будет исследован «Контракт века», подписанный с Азербайджаном в конце XX века, который включает сотрудничество в нефтяной сфере, и «Контракте нового века», подписанном в начале XXI века, как его продолжении, и активная роль Японии в этих проектах.

Ключевые слова: Азербайджан, “Контракт века”, Япония, Гейдар Алиев, нефть, SOCAR.

AYTAJ SHADIYEVA
Doctoral student of the Department of History of Asian and African Countries of Baku State University

"CONTRACT OF THE CENTURY"

The oil industry occupies one of the most important places in the 20th century's economy of Azerbaijan. After our country gained its independence in 1991, the oil industry began to serve the interests of our country. Japan is one of the most important allies of independent Azerbaijan in the oil industry. With the coming to rule of National Leader Heydar Aliyev, the economy of Azerbaijan, including the oil industry, begins to rise. As the result of the work of the Great Leader Heydar Aliyev, Japan became the most important shareholder of the Azerbaijani oil industry and "Contract of the century". Azerbaijan's rich oil reserves and successful policy have opened a new stage in the development of our economic relations with Japan. The article will talk about "Contract of the century" which signed with Azerbaijan at the end of the 20th century, which includes cooperation in the oil field, and as its continuation,"The New Contract of the century" signed at the beginning of the 21st century and the active role of Japan in these projects.

Keywords: Azerbaijan, "Contract of the century", Japan, Heydar Aliyev, oil, SOCAR.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 fevral 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 25 mart 2024-cü il.
Rəyçilər: t.ü.f.d. Qismət Davudov, t.e.d. Sani Hacıyev.